

**Azərbaycan tarı deyəndə ilk öncə gözlərimizin önündə Sadıqcan dayanır. Mirzə Sadıq Əsəd oğlu. Dünənini unudanın sabahı, gələcəyi olmaz, deyib müdrik aqillərimiz. Dünənində bu günümüzü yaradanları yad etmək borcumuzdur. Borcumuzu yerinə yetirmək üçün tarixin sənət səhifələrini vərəqləyib arxivdən bəzi məqamları, örnək olan detalları "Olaylar"ın daimi muğamsevər oxucuları ilə bölüşürəm. Yəqin ki, bezdirici olmaz! Çünki söz əsl sənətdən gedir, çəkisi sanballı olan əsl sənətkardan.**

# Əbədiyaşarlıq

## Tar səsləndikcə anılacaqsan

### 18 yaşında səsi batır

***Mirzə Sadıq Əsəd oğlu*** 1846-cı ildə Şuşa şəhərində anadan olub. Atası Əsəd kişi gözətçi işləyərək ailəsini dolandırıb. Yoxsulluq və ehtiyac içərisində böyüyən Sadıq incəsənətə böyük həvəs göstərir, xalq mahnılarını özü bildiyi tərzdə oxuyur, bilmədiklərini öyrənməyə çalışır. Atası Əsəd kişi oğlunun məlahətli səsini eşidib, onu Xarrat Qulunun məktəbinə aparır. Xarrat Qulu Sadığın səsini yoxlayıb bəyənir və onu məktəbə qəbul edir. Bu məktəb Sadığın musiqiçi kimi yetişməsində mühüm rol oynayır. On səkkiz yaşında ikən Sadığın səsi batır. Lakin o, ruhdan düşməyib əvvəlcə tütək və ney çalmağı öyrənir, sonra isə kamança çalır. Bir neçə müddətdən sonra Sadıqda tar çalmaq həvəsi baş qaldırır. Görkəmli səhnə xadimi Mirzə Muxtarın atası məşhur tarzən Əli Əsgərdən tarın sirrlərinə yiyələnir. İri əlləri, uzun və güclü barmaqları olan Sadıq qısa müddətdə özünün fitri istedadı və qabiliyyəti nəticəsində nəinki bu sənətə yiyələnir, hətta məharətli tar çalması ilə öz müəllimini geridə qoyur. Sadıq tar çalanda ustadı Əli Əsgər həsədlə deyərmiş: "Kaş mənim var-dövlətim Sadığın, onun barmaqları isə mənim olaydı".

O, İran şahzadəsi Müzəffərəddinin toyunda tarı ilə elə bir məharət göstərmişdi ki, Nəsrəddin şah onu "Şiri-Xurşid" qızıl medalı ilə təltif etmişdi. Onun sol əlində o qədər qüvvə var idi ki, tarı çox zaman mizrabsız çalardı. Xan qızı Xurşudbanu Bəyim Natəvanın bütün məclislərinin bəzəyi məhz Sadıqcan olub.

### Muğama yeniliklər gətirmişdi

Sadıqcan Azərbaycan muğamına bir sıra yeniliklər gətirmişdir. O, "Segah" muğamını inkişaf etdirərək, tarın qoluna "Zabul" pərdəsini "Mirzə Hüseyn segahı"na isə "Müxalif"i əlavə etmiş, "Mahur" muğamını təkmilləşdirmişdir. Əfrasiyab Bədəlbəyli Sadıqcanın muğamata və tara gətirdiyi yenilikləri qiymətləndirərək demişdir ki, "Əgər muğamatın ifası sahəsində tarın musiqi alətləri içərisində birinci yer tutduğunu nəzərə alsaq, Mirzə Sadığın kəşf etdiyi yeniliklərin, nəticə etibarı ilə Azərbaycan musiqisi tarixində böyük bir dönüş yaratdığını təsdiq etmiş olarıq. Demək olar ki, Mirzə Sadıqdan başlayaraq Azərbaycan muğamatının mahiyyəti, onun ifadə vasitələri, təsir qüvvəsi və muğamatı ifa etmək üslubu yeni bir pilləyə qalxmış oldu. Mirzə Sadıq Azərbaycan musiqisi tarixində yeni bir səhifə açdı".

### Ona qədər tarı dizdə çalardılar

Sadıqcana qədər tarı adət üzrə diz üstündə qoyub əyilərək çalardılar. O, təxminən 1870-1875-ci illərdə İran tarı üzərində hərtərəfli rekonstruksiya aparır, tarın quruluşunu dəyişdirir. Tarı diz üstündə qoyub əyilərək çalmaqdan qurtulmaq üçün o, ilk dəfə tarın tarixində tarı sinə üzərində əlində tutaraq çalmağa başlayır. Sadıqcana qədər tarın beş simi var idi. O, tara altı sim də əlavə edib onun sayını 11-ə çatdırmışdır. Tarçalanlar arasında ilk olaraq tarda solo "Mahur" muğamını Sadıqcan çalıb.

### Komediya səhnədə sönük keçirdi

1886-cı il dekabrın 29-da Tiflisin "Arteruni" teatrının binasında M.F.Axundovun "Musyö Jordan və Dərviş Məstəli şah" komediyası tamaşaya qoyulmuşdu. Həmin tamaşanın afişasında yazılmışdı ki, tamaşanın fasilələrində məşhur tarzən Sadıq çalacaq, xanəndə Mirzəli isə oxuyacaq. Tamaşa olduqca sönük keçmişdi. Tamaşanı maraqlı edən sazəndələr idi. Tarda bütün Zaqafqaziyada birinci tarzən sayılan məşhur Sadıq çaldığından Tiflisin bütün bəstəkarları tamaşaya baxmağa gəlmişdi. Onlar Sadıqdan Şərq havalarını öyrənirdilər.

### Qaratoyuq birdən başlayıb oxudu...

Sadıqcan tarı elə məharətlə çalarmış, elə şirin barmaqlar vurarmış ki, hətta quşlar belə onun çalğısının səsindən həvəsə gələrmiş. O, hətta qaratoyuq quşuna bir-iki yüngül təsnif və mahnı da öyrətmişdi.

Bu hadisənin canlı şahidi olan **Qurban Pirimov** xatirələrində yazırdı: "Bir gün Sadıq məndən xahiş etdi ki, onun üçün Gülablıdan bir bülbül tutub gətirim, mən də bir şeyda bülbül, bir də qaratoyuq tutub apardım. Bir gün gəlib gördüm ki, o, qaratoyuğun qabağında bir güzgü qoyub, özü isə kənardan durub tar çalır. O, qaratoyuqların çöldə oxumaqlarına bənzəyən bir təsnif çalırdı. Güzgüdə öz şəklinə tamaşa edən qaratoyuq birdən oxumağa başlayanda düzü mən təəccübümdən quruyub qaldım. Sadıq belə sənətkar idi. Bu, görünməmiş bir möcüzə idi".

XVIII əsrdən etibarən Yaxın Şərq ölkələrində, o cümlədən Azərbaycanda xalq tərəfindən sevilən və qiymətləndirilən xanəndə və sazəndələrə "can" kimi yüksək ad və yaxud təxəllüs verilərdi. Bu tərifli adı qazanmaq şərəfi Sadığa və məşhur xanəndəmiz - Əbdülbaqi Zülalova (Bülbülcana) müyəssər olmuşdu.

### Sadıqcanın yetirmələri

Görkəmli tarzən bir nəsil tarçıların yetişməsində müstəsna xidmətlər göstərmişdir. Məşədi Zeynal, Mərdi Canıbəyov, Malıbəyli Həmid, Məşədi Cəmil Əmirov, Şirin Axundov, Qurban Pirimov məhz Sadıqcan tar məktəbinin yetirmələridirlər.

Sadıqcan hələ XIX əsrin 90-cı illərində Şuşada bir ansambl da yaratmışdı, dövrünün ən məşhur çalıb-oxuyanlarını ansamblına cəlb etmişdi. Hətta o, ansambla iki nəfər qızı da valideynlərinin razılığı ilə üzv qəbul etmişdi. Rəhbərlik etdiyi ansambl Xurşudbanu Natəvanın məclislərində Tiflisin "Mücətəhid" bağlarında və "Xürrəm"də dəfələrlə çıxış etmiş, uğur qazanmışlar.

### Sadıqcan irsi öyrənilməli, araşdırılmalıdır

Sadıqcan irsi araşdırılmalı, öyrənilməli və layiqincə tədris edilməlidir. Müntəzəm şəkildə "Sadıqcan" adına tar ifaçılarının müsabiqəsi keçirilməli, musiqi məktəblərində Sadıqcanla bağlı inşa müsabiqələri təşkil edilməlidir. Çox heyflər olsun ki, bugünkü efir Sadıqcanı xatırlamır, gənc nəslə Sadıqcan olduğu kimi tam həqiqətiylə çatdırılıb təbliğ edilmir. Əgər gənc musiqiçilər arasında sorğu aparsaq, əksəriyyəti Sadıqcanla bağlı suallarımızı cavablandırmaqda acizlik çəkəcək, ya da "tanımırıq" deyib cavablandıracaqlar.

Tar ifaçılarımız bu gün qazandıqlarına görə (həm maddi, həm mənəvi) ilk öncə Sadıqcana borclu olmalıdırlar. Çünki tarın tarixini, təkamülünü pozub təzədən yazmaq qeyri-mümkündür. Kökündə Sadıqcan dayanan tara budaqlar yarana bilər, kökündə Sadıqcandan başqa birisinin dayanmasını və dayanacağını zənn etmək belə absurddur. Bax budur həqiqət!

### Öləndə də şərəflə öləsən

Mirzə Sadıq 1902-ci ildə 56 yaşında Şuşada dünyasını dəyişdi. O, şərəflə öldü. Muğamlarımızın ölməməsi, üçlüyümüzün yaşaması üçün tarı təkmilləşdirdi, onu ürəyimizə daha yaxın qaldırdı. Həm Azərbaycan musiqisini, muğamlarını, həm də özünü ürəyimizə yaxın qoymaq üçün. Tar səsləndikcə, dindikcə yaşayacaqsan. Tar səsləndikcə anılacaqsan. Axı tar elə sənsən. Tar elə sənin özünsən. Ruhun sakit, ustad! Əbədiyaşarlıq qazanan Sənətkar, əbədiyyətin mübarək!

*A.Nəbioğlu*